Qədim, doğma Qobustanım

# QOBUSTAN

Qobustan Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1992-ci ildən çıxır * İCTİMAİ-SİYASİ QƏZET * №008 (183) * Dekabr 2018-ci il

# 12 Dekabr-Ümummilli liderimiz Heydər Əliyevin xatirə gününə həsr edilmiş mərasim









***Tədbir Qobustan şəhər Heydər Əliyev parkındakı Ulu Öndərin abidəsi önünə gül qoyluşu ilə başladı.Sonra Qobustan rayon Heydər Əliyev Mərkəzində tədbir davam etdi.***

Qobustan RİH -nin Başçısı cənab Adil Məmmədov çıxış etdi: - Bu gün bütün Azərbaycan xalqı öz xilaskarı, ümummilli lideri Heydər Əliyevin anım gününü qeyd edir, Ulu öndərin əziz xatirəsini dərin minnətdarlıq hissi ilə anır. Bu gün müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın əvəzsiz lideri, ölkəmizin aydın sabahı naminə həyatını belə əsirgəməyən Heydər Əliyevin əbədiyyətə qovuşmasından 15 il keçir:

Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lideri adını qazanmış görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin xüsusi rolu vardır. Çünki dövlət xadimlərindən ancaq bu dahi şəxsiyyət Ümummilli lider səviyyəsinə yüksəlmişdir. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Ulu öndər bu iki keyfiyyəti ehtiva etməklə bərabər, fəaliyyət göstərdiyi bütün digər sahələrdə də özünü məhz birinci şəxs kimi, lider kimi təsdiq etmişdir.

Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük Azərbaycanlı idi.

Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Liderlər var ki, siyasi fəaliyyət, dövlət idarətməsi sahəsində uzun illər çalışıb püxtələşdikdən sonra tanınırlar. Elə adamlar da var ki, bu, onlarda fitrən mövcuddur, genlərində kodlaşdırılıb, bir sözlə, ilahi vergidir. Heydər Əliyev məhz ikincilərdəndir. Digər vacib məqam səlahiyyət məsələsidir. Heydər Əliyev tək Azərbaycan səviyyəsində deyil, keçmiş ittifaq səviyyəsində, hətta Qərb miqyasında sözünün keçəri, urvatı olan lider idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı. Bu iki məqam onu həmkarlarından əhəmiyyətli dərəcədə fərqləndirən professional cizgilərdəndir.

Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi. O təkcə güclü təsərrüfatçı deyil, həm də sözlərinin çəkisi və sanbalı olan, kütləni arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran bir siyasi xadim idi. Heydər Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqalarına, həmkarlarına nisbətən daha güclü idi.

Tarixi bəsirət, irəlini görmək nadir bir hissdir. Siyasi xadimlərin heç də hamısında bu hiss olmur. Təbiət bu keyfiyyəti yalnız seçilmiş adamlara - zəmanəsini çox-çox qabaqlayan görkəmli mütəfəkkirlərə verir. Nəhəng siyasətçi Heydər Əliyev kimi. O, analitik düşüncə tərzi ilə, çətin vəziyyətlərdə soyuqqanlılığını qoruyb saxlamaq məharəti ilə, yüksək intellekti, dünya mədəniyyətinə bələdliyi ilə ətrafdakıları heyrətləndirirdi.

Ulu öndəri xarizmatik lider, fenomenal şəxsiyyət adlandırırlar. Müasir siyasi texnologiyalarda lider üçün xarizma məsələsi çox vacib şərt hesab edilir. Heydər Əliyev məhz güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşısına qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, səbat, diqqət və başqa cəhətlər Heydər Əliyevin fərdi naturasının özgün çalarları idi.

Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdi.

Təsadüfi deyildir ki, onun atdığı addımlar, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü və obyektivliyi və hər cəhətdən ölçülüb biçildiyindən ətraflardakıları heyrətləndirmiş, siyasət aləminin patriarxı adını qazandırmışdır. Hətta dünyanın ən görkəmli siyasət və dövlət xadimləri Heydər Əliyevlə məsləhətləşdiklərini, ondan öyrəndiklərini dönə-dönə etiraf etmişlər. Siyasətçilər bu dahi insanı "liderlərin lideri" adlandırırdılar. Onun siyasətinin gücü nədə idi?!

- Siyasi uzaqgörənliyində, fitri istedadında, müdrikliyində, ölçülüb-biçilmiş qərarlarında, qətiyyətliliyində, siyasi iradəsində, dərin zəkasında, ensiklopedik biliyə malik olmasında, geniş dünyagörüşündə, milli maraqlara əsaslanmasında, tarixi şəraitdən düzgün baş çıxarmasında, zaman və məkan amilini qiymətləndirməsində, dözüm və səbirliliyində, nəzəriyyəyə istinad etməsində və praktik həyatdan baş çıxarmasında - bir sözlə, fenomenal şəxsi keyfiyyətlərində idi. Bu dahi siyasətçi zərgər dəqiqliyi ilə ölçülüb-biçilmiş qərarlar qəbul edirdi. Onun fəaliyyəti haqsız yerə "təftiş" edilənde belə irad tutulası, "nöqsan deyiləsi" olan bir fakt belə tapa bilməmişlər. Yarım əsrlik siyasi fəaliyyətin qızıl qaydası çoxları üçün təəccüblü idi. Təəccüb və möcüzələr, başqalarını şok vəziyyətinə salan faktlar yüzlərlədir. Elə bu keyfiyyətlər onu başqalarından fərqləndirirdi.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir.

*(Ardı səh.2-də)*

# 12 Dekabr-Ümummilli liderimiz Heydər Əliyevin xatirə gününə həsr edilmiş mərasim



*(Əvvəli səh.1-də)*

Kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdi. 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev siyasət aləmində çox güclü, səriştəli və təcrübəli müdrik dövlət xadimi kimi qısa bir müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaratdı. Dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. O, Qərbə inteqrasiya yolunu seçdi. Ən çətin anlarda belə Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

Heydər Əliyev idarəetmənin ustadı, siyasətin kamil bilicisi kimi bütün dünyada məşhur idi. Bu dahi insanın təliminə görə siyasət və uzaqgörənlik qarşılıqlı vəhdətdədir. Ulu öndər deyirdi ki, reallığı düzgün qiymətləndirən, keçmiş təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini irəlicədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir.

Heydər Əliyev uzaqgörən və ağıllı siyasətçi kimi nəyi nə zaman deməyi, hansı addımı nə vaxt atmağı zərgər dəqiqliyi ilə bacarırdı. Ulu öndər qeyd edirdi ki, “biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun”.

Onun siyasəti milli maraqlar üzərində qurulmuşdu. Xalqımızın və dövlətimizin elə bir problemi olmamışdır ki, həmin problemləri kimsə Heydər Əliyev yüksəkliyində dərk etmiş olsun. O, hər hansı problemə həsr olunmuş yığıncaqda məsələyə dərindən bələdliyi, verdiyi suallar, qaldırdığı problem məsələlərlə həmin sahənin mütəxəssislərini belə heyrətləndirirdi. Çünki o, istər sənaye, istər kənd təsərrüfatı, istərsə də elm, maarif, mədəniyyət ilə bağlı məsələlərin müzakirəsində bütün iştirakçıları həmin sahənin əvəzedilməz bilicisi kimi idarə edirdi. Onun kimi təsərrüfatı təsərrüfatçıdan, tariximizi tarixçidən, incəsənətimizi sənətşünasdan, iqtisadiyyatı iqtisadçıdan yaxşı bilən, onun problemlərini həll etməyə istiqamətləndirən ikinci adam tapmaq mümkün deyil.






Heydər Əliyevin mülahizələri problemlərə dərindən bələdlik, hadisələrin məğzinə, səbəb-nəticə əlaqələrinə nüfuz etmək xüsusiyyəti ilə seçilirdi. Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirir və onun ağıllı siyasətini birmənalı olaraq qəbul edirdilər. Elə bu cəhətlərinə görədir ki, xalqımız onu əsrin böyük Azərbaycanlısı, xalqın xilaskarı, müstəqil Azərbaycan dövlətinin memarı və Azərbaycanı dünyaya tanıdan insan kimi qəbul edir, hörmət bəsləyir və ürəkdən sevirdi.

Bu da bir həqiqətdir ki, dünyada tanınan, sevilən, şəxsiyyətinə, siyasi və dövlətçilik fəaliyyətinə çox böyük hörmətlə yanaşılan Heydər Əliyev haqqında söz demək, fikir söyləmək o qədər də asan deyil. Bu gün dünya ictimaiyyəti Azərbaycanı və onun liderini tanıyır, onu minnətdarlıqla xatırlayırsa, ünvanına ən xoş sözlər söyləyirsə, yüksək rəyini, fikrini deyirsə, bu özü xalqımız üçün böyük şərəfdir. Biz qürur duyuruq ki, xalqımızın dünyada bu səviyyədə sevilən, hörmət bəslənilən ümummilli lideri olmuşdur.

Heydər Əliyev fenomeni, onun şəxsiyyətinin ucalığı, fövqəladə idarəçilik qabiliyyəti, yüksək intellekti nəticəsində dünyanın görkəmli siyasətçiləri və dövlət xadimləri arasında onun adı həmişə birincilər sırasında çəkilib. Azərbaycan coğrafi cəhətdən kiçik ölkə olsa da, Heydər Əliyevin böyük siyasət adamı olaraq beynəlxalq miqyasda özünü təsdiq etməsinə heç vaxt mane olmayıb. Ən məşhur, tanınmış siyasətçilərin reytinqinin müəyyənləşdirilməsi üçün aparılan beynəlxalq sorğularda, siyasi institutların, sosioloji mərkəzlərin araşdırmalarında Heydər Əliyevin adının birincilər sırasında yer tutması onun siyasətdə, həyatda, dövlətçilik təcrübəsində qazandığı uğurların təsdiqi idi. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, hələ on ildən artıq bundan əvvəl Braziliyanın “Planetin səsi” qəzeti doqquz dövlətin jurnalistlərinə “dünyanın hansı üç super siyasətçisinin adını çəkə bilərsiniz” sualını vermiş və altı dövlətin jurnalistləri birinci olaraq ümummilli lider Heydər Əliyevin adını çəkmişdir.

Ulu öndərimizin bu nüfuzu onun xalq və ölkə qarşısındakı əvəzsiz xidmətləri, özünün nəsillərə nümunə ola biləcək həyat fəaliyyəti, iti düşüncəsi, əqidə və məsləki ilə, onun rəhbərliyi dövründə Azərbaycanın demokratiya və müstəqillik yolunda atdığı uğurlu addımları ilə bağlıdır. Dünya siyasətçiləri, beynəlxalq ictimaiyyət və xalqımız bu dahi insanı Heydər Əliyev olduğuna görə deyil, vətən və dövlət qarşısında gördüyü böyük işlərə, dünyada təhlükəsizliyin qorunmasına, düzgün və pozitiv inkişafa çalışdığına, siyasi və ictimai fəaliyyətinə görə qiymətləndirmişdir. Bu səbəbdəndir ki, dünyanın ən görkəmli siyasi xadimləri, dövlət rəhbərləri, tanınmış elm və mədəniyyət nümayəndələri Heydər Əliyev şəxsiyyətini yüksək qiymətləndirmiş, ondan çox şey öyrəndiklərini bildirmişlər. Onun haqqında deyilən söz, verilən qiymət bu gün də, sabah da lazımdır, bunlar tariximizin yaddaşına köçürülməlidir.

Heydər Əliyev qlobal düşüncəli, geniş dünyagörüşlü nəhəng bir siyasətçi idi. O, realist bir insan olaraq hadisələrə praqmatik yanaşırdı, tarixi şəraitdən düzgün baş çıxarırdı, ölkənin taleyi üçün uğurlu qərarlar qəbul edirdi. Onun ağıllı və uzaqgörən siyasətində hər şeyin öz yeri və vaxtı var idi. O, beynəlxalq aləmdə tarazlaşdırılmış siyasətin, ölçülüb-biçilmiş fəaliyyətin ustadı idi. Bu dahi siyasət adamı bütün fəaliyyəti boyu müdrik insan, qətiyyətli rəhbər, xalq məhəbbətini qazanan uzaqgörən siyasətçi və ağıllı dövlət xadimi olduğunu təsdiq etmişdir. İnanmaq çətindir ki, dünyada xalqa bu qədər yaxın ikinci bir siyasətçi olarmı. Siyasətçi üçün lazım olan keyfiyyətlərlə yanaşı, onda idarəetmə keyfiyyətləri, dövlətçilik təcrübəsi ən yüksək səviyyədə idi. Elə bunlar idi onun siyasətinin ucalığı, aliliyi, uzaqgörənliyi və heyrətamizliyi.

Heydər Əliyev siyasəti bütün dünyanı ehtiva edə bilir, düzgün istiqamətə yönəldirdi. Heydər Əliyevin beynəlxalq Atatürk sülh mükafatına layiq görülməsi onun dünyada apardığı sülh siyasətinə verilən qiymət idi. O, dünyanın bütün ölkələri və onların rəhbərləri ilə, hətta məkrli düşmənlərimizlə də “sülh dili” ilə nəinki danışmağı bacarırdı, onlara da bunu aşılaya bilirdi. Ulu öndərimizin ən ali insani keyfiyyətləri, fenomen xarakteri, insanlarla dil tapmaq bacarığı, hərəni öz dilində danışdırmaq məharəti onu tanıyanların sevimlisinə çevirirdi. Hər dövlət xadiminə xas olmayan üstünlüklər ulu Tanrının Heydər Əliyevə verdiyi ən ali keyfiyyətlər idi. Görəsən, bəşəriyyət belə nəcib, yüksək intellekti ilə seçilən dövlət xadimləri, siyasət nəhəngləri ilə çoxmu qarşılaşıb?! Təəssüf ki, buna heç də çox rast gəlinməyib. Heydər Əliyev kimi dövlət və siyasət adamları bəşəriyyətin, insanların xeyrinə, sülhün və əmin-amanlığın təmin edilməsinə yetərincə pay vermişlər.

Azərbaycan xalqının ümummilli lideri yüksək bəşəri keyfiyyətlərə, təvazökarlığa, hər şeydən öncə isə demokratik dövlət quruculuğu prinsiplərinə daim sadiq qalan böyük şəxsiyyət idi. O, Azərbaycan tarixində bəlkə də yeganə siyasət adamıdır ki, onun fəaliyyəti yalnız konkret sahələri əhatə etmir, həm də ümummilli və qlobal əhəmiyyətli problemlərin aradan qaldırılmasına xidmət edir. Onun xalq işinə sədaqəti, siyasi müdrikliyi, böyük dövlətçilik təcrübəsi, parlaq hafizəsi, geniş dünyagörüşü, polad iradəsi, mərdanə qətiyyəti, həssas qəlbi, möhkəm səbri, çox hövsələliyi, ədalətli olması, həmişə obyektiv mövqe tutması, yüksək intellekti və ziyalı mövqeyi, dolğun tədbirliliyi və analitik təfəkkürü, sadə davranışı, heyrətamiz enerjisi... - bir dövlət başçısı kimi onun ən yüksək keyfiyyətləri idi.

Heydər Əliyevin dərin məntiqli nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi onu dinləyənləri məftun edirdi. Onun nitqi dərin və konkret idi, müzakirə olunan məsələni yüksək səviyyədə ümumiləşdirmək bacarığına malik idi. Ulu öndərin nitq və çıxışlarında artıq söz və ifadə, qeyri-dəqiq fakt və rəqəm olmur, fikirlərini son dərəcə cilalanmış şəkildə ifadə edirdi. O, məsələnin mahiyyətini açmağa, mövzunun milli mənafe, dövlətçilik mövqeyindən təhlil etməyə xidmət edən məsələni ustalıqla göstərməyi bacarırdı.

*(Ardı səh.3-də)*

# 12 Dekabr-Ümummilli liderimiz Heydər Əliyevin xatirə gününə həsr edilmiş mərasim

*(Əvvəli səh.2-də)*

Görkəmli siyasətçi üçün uzaqgörənlik, düzgün qərar çıxartmaq nə qədər əhəmiyyətlidirsə, rəvan nitqə, yüksək intellektə, təhlil etmək bacarığına yiyələnmək də bir o qədər vacibdir. Bu cəhətdən Heydər Əliyevə uyğun gələn siyasətçi çox azdır. Ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin obyektiv təhlili göstərir ki, o, başqalarından fərqli olaraq qeyri-adi zəkaya, böyük enerjiyə, islahatçı təfəkkürə, yüksək analitik təfəkkürə və yenilməz iradəyə malik siyasətçi idi. “Siyasət üçün doğulmuşlar siyasətdən əl çəkdikcə, siyasət onlardan əl çəkmir” - deyimi tamamilə Heydər Əliyevə aid edilə bilər. Ona görə də bir sıra hallarda Heydər Əliyevi “siyasət nəhəngi”, “siyasət qrosmeysteri”, “siyasət patriarxı”... kimi xarakterizə edirlər. Qüdrətli dövlət xadimi siyasət aləminin müəllimi idi. Onun müəllimliyindən çoxlarına pay düşmüşdür.

Xalqımız qarşıya çıxan hər hansı bir çətin problemlərin həllini, xilaskarlıq missiyasını Heydər Əliyevdə görürdü. Bu, on illərlə formalaşmış fikirdir, özü də doğru və düzgün fikirdir. Ölkəmizin fəxri, mili iftixarımız və liderimiz olan Heydər Əliyev bütün problemlərin həll olunmasının öhdəsindən yüksək səviyyədə gəlmişdir.

Çünki o, bir neçə on il bundan sonra görəcək işləri bu gün həyata keçirməyi bacaran nadir keyfiyyətlərə malik uzaqgörən siyasətçi və təcrübəli dövlət xadimi idi. Onun siyasəti ölçülüb-biçilmiş, gələcəyə ünvanlanmış siyasət idi.

Ümummilli lider Heydər Əliyevi dünyanı dəyişmiş insanlar cərgəsinə aid etmək olar. Müasirləri onun gördüyü işləri hələ layiqincə dəyərləndirməyiblər: onun yer üzünə nə üçün gəldiyini və kim tərəfindən göndərildiyini tam dərk edə bilmək üçün hələ olduqca az vaxt keçib. XX əsr və XXI əsrin başlanğıcının görkəmli siyasətçilərindən və dövlət xadimlərindən biri olan Heydər Əliyevin ibrətamiz həyatı və heyrətamiz siyasi fəaliyyəti gələcək yüzilliklərdə hələ neçə-neçə siyasət adamına istiqamət verəcəkdir.



Bu gün ölkəmiz bu siyasətin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır. Bu siyasətin icraçısı ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Azərbaycan Respublikası Heydər Əliyev siyasəti ilə irəliləyir və yaşayır. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və onun ətrafında daha sıx birləşirlər. Cənab İlham Əliyev ulu öndərin siyasi kursunu layiqincə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və nəticədə beynəlxalq aləmdə Azərbaycan Respublikasının rolunu və nüfuzunu artırır.

***“Qobustan “ qəzeti***

# 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təntənəli yığıncaq keçirildi

***Tədbirdə çıxış edən Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov rayon sakinlərini qarşıdan gələn əlamətdar bayramlar münasibətilə təbrik edib. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün yaranma tarixindən və əhəmiyyətindən danışıb.***












O, respublika iqtisadiyyatının inkişafının möhkəm təməlini qoyan ümummilli lider Heydər Əliyevin xidmətlərini vurğulayaraq, Prezident İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində Azərbaycanda bütün sahələrdə davamlı tərəqqinin təmin edildiyini bildirib. Ümummilli liderimiz Heydər Əliyevin milli həmrəyliyin möhkəmləndirilməsi sahəsində əvəzsiz xidmətlərindən, qazanılan uğurlarından danışdı. 2018-cı ilin xalqımız, o cümlədən qobustanlılar üçün uğurlu olduğunu qeyd edən A.Məmmədov yola saldığımız ildə rayonda həyata keçirilən genişmiqyaslı tikinti, quruculuq və yenidənqurma işlərindən, qarşıda duran vəzifələrdən danışdı. Sonra qeyd etdi ki, yola saldığımız ildə rayonun makroiqtisadi göstəriciləri yüksəlib, tikinti-quruculuq və abadlıq işləri davam etdirilib, kənd təsərrüfatı nəzərəçarpacaq dərəcədə inkişaf edib.

Bayram şənliyində Şaxta baba və Qar qız qobustanlılara Yeni il arzularını çatdırdılar, uşaqlara bayram hədiyyələri paylaydılar və uşaqlarla birgə rəqs etdilər. Rayonun musiqi kollektivləri rəngarəng konsert proqramı ilə iştirakçılarda xoş ovqat yaratdılar.

## Dəm qazı haqqında nə bilirik?

***Son zamanlar ölkəmizdə dəm qazından zəhərlənənlərin və ölənlərin sayı getdikcə artır. Dəm qazından zəhərlənmənin insan üçün çox ciddi fəsadları var və bu cür zəhərlənmələrin ən təhlükəli tərəfi insanın dəm qazı sızmasını hiss etməməsi və asanlıqla huşunu itirməsidir.***

Kimyəvi adı karbon-monooksid (CO) olan dəm qazı təmiz halda gözə görünməyən, rəngsiz, iysiz, dadsız; havadan yüngül, suda pis həll olunan qazdır. Dəm qazı natamam yanma məhsulu olub, güclü zəhərləyici xassəyə malikdir. Bu qaz üzvi maddələrin, o cümlədən, təbii qazın, neft məhsullarının və odu yanacağının natamam yanması nəticəsində əmələ gəlir. Çünki yanma tam getməyəndə dəm qazı karbon qazına çevrilə bilmir. Normal yanma zamanı isə dəm qazı tam yanaraq karbon 4-oksidə çevrilərək tüstü boruları vasitəsilə xaric olunur.

### Dəm qazı nədir?



Məişətdə işlədilən təbii qazın əsas tərkib hissəsini metan qazı təşkil edir. Qaz sızması olarkən, onun iyini hiss etmirik. Təbii qazın yanması üçün normal hava çatmadıqda isə dəm qazı yaranır ki, bu da tez bir zamanda orqanizmi zəhərləyir. Kimyəvi adı "karbon-monooksid" olan zəhərli dəm qazı heç bir ilə duyulmur.

Dəm qazı başqa yanacaq növlərindən istifadə zamanı da, məsələn, kömür yandırılarkən yarana bilər. Onun əmələ gəlməsinin qarşısını almaq üçün yanma məhsulları olan otaqlarda tez-tez havanın dəyişdirilməsi, qızdırıcıların hava sorucu borularının yaxşı işləməsinə nəzarət etmək lazımdır.

Qapalı mühitdə qaz yandırılarkən mütləq nəfəsliklər açıq olmalıdır. Mütəxəssislər bunlarla yanaşı, təhlükəsizlik baxımından dəm qazı yarandıqda onu işarə verən müasir qaz cihazlarından istifadəni məsləhət görür.

### Dəm qazı ilə zəhərlənməni necə bilmək olar?

Dəm qazı ilə yüngül zəhərlənmə zamanı zərərçəkəndə başgicəllənmə, baş ağrısı, quru öskürək, ürəkbulanma, qusma kimi əlamətlər meydana çıxır. Daha ağır zəhərlənmə isə qıcolmalar, huşunu uzun müddət itirilməsi, beyin ödemi, ürəyin zədələnməsi baş verir. Yadda saxlamaq lazımdır ki, kiçikyaşlı uşaqlar, hətta, az miqdarda dəm qazından həyatlarını itirə bilərlər!

Dəm qazının orqanizmə öldürücü təsiri bununla izah olunur ki, o qanda tez bir zamanda hemoqlobinlə birləşir. Bu zaman toxumaların hüceyrələrinə oksigen daşınmır və oksigen qıtlığı nəticəsində insan huşunu itir. Həmin vaxt bədəndə süstlük əmələ gəlir, nitq tutulur.

### Dəm qazı ilə zəhərlənmə zamanı ilk tibbi yardım!

Zəhərlənmə zamanı həyəcanlanmadan ilkin tədbirlər görmək lazımdır. İlk olaraq, zərərçəkəni dərhal açıq havaya çıxarmaq, əynindəki paltarın yaxasını, kəmərini və s. açmaq, ona yarıoturaq vəziyyət vermək (ağciyər ödeminin qarşısını almaq üçün) lazımdır.

Bundan başqa, zərərçəkənin alnına, sinəsinə soyuq kompres qoymaq, əgər zərərçəkən nəfəs almırsa və ürəyi dayanmışsa, ürəyi xarici masajı və süni tənəffüslə dərhal reanimasiya tədbirlərinə başlamaq lazımdır.

Əgər insanın huşu üstündədirsə, qızdırıcı içki, çay vermək lazımdır. Huşu özündə deyilsə, başını sağa-sola çevirib, ağız boşluğundakı seliyi təmizləmək lazımdır. İlkin olaraq, şirin çaya limon qatıb vermək olar.

Dəm qazı ilə zəhərlənmənin ilk əlamətləri meydana çıxan kimi, dərhal təcili yardım çağırmaq lazımdır.

Qazla ehtiyatlı davranın, xoşbəxtliyinizdən məhrum olmayın!

***Ruslan Şahbazov***

# Qobustan rayonunda qışlamaya hazırlıqla bağlı tədbir keçirildi





***Qış zamanı rayonumuzda yolların buz bağlaması və ya qarla tutulması bir sıra hallarda çox ciddi problemlər yaradır. Qobustan Yol istismar sahəsi əvvəlki illərdə bu problemləri uğurla aradan qaldırmışdır.***



Bu ilin qış mövsümündə rayonumuzn daxilindən keçən Respublika əhəmiyyətli yolda buz bağlaması ehtimal edilən yerlərdə hazırlıq işləri görülmüşdür. Qobustan-Xilmilli, Bədəlli-Yekəxana-Poladlı, Təklə Sündü Xilmilli yollarında da müvafiq hazırlıq işləri aparılmışdır, eyni zamanda digər kənd yollarının təmizlənməsi üçün texnikaların hazırlanması başa çatdırılmış, zəruri ehtyatlar yaradılmışdır.

***Redaktor***

# Daha bir kənd mavi qazla təmin olundu







***Qobustan rayon Şıxzahırlı kəndində mavi qazın verlişi ilə əlaqədar açılış tədbiri keçirildi***

Qobustan rayon Şıxzahırlı kəndində Qobustan rayon İcra Hakimiyyətinin və Ağsu Regional Qaz İstismar İdarəsinin təşkilatçılığı ilə 143 abonentə mavi qazın verilişi ilə əlaqədar açılış tədbiri keçirildi. Tədbirdə Qobustan rayon icra hakimiyyətinin başçısı cənab Adil Məmmədov, Ağsu Regional Qaz İstismar İdarəsinin rəisi Namiq Məmmədov iştirak etdilər.

Kənd ağsaqqalları və ictimaiyyət nümayəndələri çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevə hər bir kəndin sosial problemlərinin aradan qaldırılması istiqamətində aparılan işlərə, ucqar kəndlərdə belə yaşayan vətəndaşlarımıza göstərdiyi diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildirdilər.

Sonra Qobustan RİH-nin başçısı cənab Adil Məmmədov çıxış edərək bütün kənd sakinlərini bu gün münasibəti ilə təbrik etdi, bu mavi qazı şad günlərində istifadə etmələrini arzuladı və qeyd etdi ki, təhlükəsizlik qaydalarına düzgün riayət etsinlər. Bu barədə hər bir kənd sakini maarifləndirilməlidir.

Ağsu Regional Qaz İstismar İdarəsinin rəisi Namiq Məmmədov kənd sakinlərinə qazlaşdırılma ilə bağlı məlumat verərək qeyd etdi ki,

Podratçı: "Azqaz inşaat servis QSC"

Polad boru: müxtəlif diametrli, (D-57mm; D-76mm; D-108mm) --- 11 219 p/m,

D-57mm --- 7 119 p/m,,

D-76mm --- 3 032 p/m,, D-108mm --- 1 068 p/m

Polietilen boru: PE-110x6,6mm --- 8 779 p/m

Siyirtmə:

D-50mm --- 12 ədəd

D-80mm --- 3 ədəd

ŞQTM300 m3/saat --- 1 ədəd

Abonent sayı 143.

Qazlaşma üçün birpilləli sistem əsasında, ümumi uzunluğu 11 219 p/m polad boru çəkilmişdir. Hər bir fərdi evə sayğac və fərdi tənzimləyici quraşdırılmışdır.

Polietilen PE-110mm 8 779 p/m çəkilmişdir.







# Qobustan rayon Qaracüzlü kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi





**Qobustan rayon Qaracüzlü kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi. Qaracüzlü kəndi Qurbançı kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyin ərazisində yerləşir. Görüşdə ilk öncə Qaracüzlü kənd üzrə nümayəndə Qaragədayev Sadətdin hesabat verərək il ərzində kənddə görülən işlər barədə danişdı.**

Qeyd etdi ki, Qaracüzlü kənd ərazisində 37 təsərrüfatda 197 nəfər vətəndaş qeydiyyatda olmasına baxmayaraq 8 ailə yaşayır. Ümumi ərazisi 5540 hektar olan bu kəndin əkinə yararlı sahəsi 863 hektar, qalan sahələr isə kənd sakinlərinin heyvanlarının otlaq sahəsi kimi istifadə olunur. O, kənddə hal-hazırda yaşayan ailələr haqqında məlumat verdikdən sonra qeyd etdi ki, əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır.

Sonra kənd sakinlərindən Xaliqov Təbriz Babazadə oğlu elektrik dirəklərinin qəzalı vəziyyətdə olduğunu bildirdi, Nağıyev Babaverdi Ağabala oğlu isə çıxış edərək təbii qazın kənddə olmamasını nəzərə alaraq qaz çəkilişini yaxın zamanda həyata keçməsini arzuladı, Mirzəməmmədov Mehdibala Heybət oğlu kəndə gələn yolun yenidən inşa olunmasını xahiş etdi və başqa vətəndaşlar çıxış edərək rayonumuzda aparılan quruculuq-abadlıq işlərinə görə cənab Prezidentimizə kənd sakinləri adından öz təşəkkürlərini bildirdilər. Kənd əhalisinin rahatlığı üçün bu kəndində digər kəndlər kimi sosial problemlərinin yaxın zamanlarda həll olunacaqlarına inandıqlarını bildirdilər.

Sonda Qobustan RİH başçısı cənab Adil Məmmədov Qaracüzlü kəndinin problemləri ilə yaxından tanış olduğunu və aidiyyatı üzrə işlər görüldüyünü bildirdi. Kənddə kənd təsərrüfatına xüsusi yer verildiyini və bütün əkinlərin aqrotexniki qaydalara əməl olunaraq əkilməsinin və ziyanvericilərə qarşı aparılan mübarizənin vacib olduğunu qeyd etdi. Sonra qeyd etdi ki, rayonumuza göstərilən bu qayğıya görə cənab prezidentimiz İlham Əliyevə öz təşəkkürümüzü bildiririk.

Vətəndaşlara bildirlidi ki, bu gün səsləndirilən məsələlər tez bir zamanda öz həllini tapacaq.

***Redaktor***





# “Narkomaniyaya yox deyək”

Tədbirdə Rayon Polis Şöbəsinin rəisi polkovnik Etibar Babayev, Narkomaniya üzrə mübarizə qrupunun şöbə müdiri baş leytenant Zaur Tağıyev, Əməliyyat şöbəsinin rəisi mayor Tariyel Abdullayev, Qeydiyyat şöbəsinin rəisi mayor Fuad Seyidəhmədov və Polis şöbəsinin digər əməkdaşları,həmçinin Gənclər İdman İdarəsinin rəisi Qadir Əkbərov , Qobustan Rayon Mərkəzi xəstəxanasının nümayəndələri , müəllimlər, şagirdlər və valideynlər iştirak edirdi.











Məktəbin direktoru Ziya Məlikov tədbiri giriş sözü ilə açaraq tədbirin mahiyyəti haqqında iştirakçıları məlumatlandırdı və “Narkomaniyaya” haqqında geniş məlumat vermək üçün sözü Qobustan RPŞ-nin rəisi Polkovnik Etibar Babayevə verdi. Polis rəisi narkomaniyanın “ağ ölüm” adlandırıldığını, onun insanları hansı bəlalara düçar etdiyini tədbir iştirakçılarına çatdırdı. Çıxışının sonunda şagirdləri maraqlandıran suallara cavab verdi.

Gənclər İdman İdarəsinin rəisi Qadir Əkbərov gəncləri bu dəhşətli və qorxulu vərdişlərdən uzaq durmağa, bu vərdişlərin hansı təhlükələrə gətirib çıxaracı haqqında geniş məruzə ilə cıxış etdi.

Məktəbin tarix müəllimi İdris Alcanov şagirdlərə və tədbir iştirakçılarına Azərbaycan xalqının milli-mənəvi dəyərləri barədə ətraflı məlumat verərək tədbirin önəmli olduğunu bildirdi. Sonda şagirdlərin mövzu ətrafında çıxışları və rollu oyunları ilə tədbir başa çatdı. Tədbir bitdikdən sonra qonaqlar məktəblə tanış oldular. Beləliklə, gənc nəslin təlim-tərbiyəsi hamımız üçün önəmli olmalıdır. Sağlam gələcək üçün sağlam nəsil yetişməlidir.

Gəlin hamılıqla “Narkomaniyaya yox deyək”.

***Qobustan rayon Ş.Şikarov adına Sündü kənd tam orta məktəbinin direktoru Z.Məlikov***

# "Narkomaniya" əsrin bəlası





***Tədbirdə rayon icra hakimiyyəti və polis şöbəsinin əməkdaşları, gənclər və idman, təhsil, səhiyyə müəssisələrinin nümayəndələri və məktəblilər iştirak ediblər.***

Rayon Polis şöbəsinin rəisi polkovnik Etibar Babayev öz çıxışında son illər narkotik vasitələrə qarşı mübarizənin xeyli gücləndiyini, dövlət orqanlarının bu sahədəki fəallığının xeyli artığını və sosial bəlaya qarşı aparılan kompleks mübarizə tədbirləri sırasında rayonumuzda müxtəlif tədbir həyata keçirildiyini söyləyib.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Qadir Əkbərov narkomaniya ilə bağlı görülmüş işlər haqqında məlumat verərək, bu mübarizədə maarifləndirmə, təbliğat və profilaktika işlərinin daha düşünülmüş və səmərəli şəkildə aparılmasının vacibliyini qeyd edib.

Qobustan rayon Mərkəzi Xəstəxanasının baş həkimi Emin Hüseyn narkotik vasitələrin insan orqanizminə vurduğu zərərli təsir, onun törətdiyi ağır fəsadlar, narkomanların erkən aşkar olunması və müalicə profilaktikası istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Qobustan rayon Təhsil Şöbəsinin müdiri Füzuli Güləliyev bəşəriyyətin ən böyük bəlalarından olan narkomaniyanın cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vurduğunu, elmə, təhsilə mənfi təsir göstərdiyini, insanların həyat və sağlamlıqlarına ciddi təhlükə yaratdığını və cinayətkarlığın artmasına səbəb olduğunu qeyd etdi.





A.Çernyayevski adına Qobustan şəhər 1 saylı tam orta məktəbin direktoru İmran Sabirov şagirdlərlər arasında narkomaniyaya qarşı mübarizə üzrə təbliğat işlərinin aparılmasında ailənin və təhsil müəssisələrinin üzərinə daha çox məsuliyyətin düşdüyünü qeyd edərək, tədris müəssisələrində belə tədbirlərin keçirilməsinin vacibliyini vurğuladı.

# Cümhuriyyətin 100 illiyi

***Əlbəttə, bir evin sağlam uzun ömürlü olması üçün onun bünövrəsi möhkəm olmalıdır. Eləcə də bir dövlətin güclü olması üçün də onun üzərində durduğu özülü, təməli daha sağlam və qüsursuz olmalıdır. Cənab İlham Əliyevin göstərişi ilə 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyət İli" elan etməsi Azərbaycanın bitib-tükənməyən və əsirlərin süzgəcindən keçib gələn, dövlətçilik tarixinə olan böyük hörmət və sevginin bariz göstəricisidir.***

Məhz elə bu səbəbdən günümüzdə müstəqil Azərbaycan Respublikası günügündən tərəqqi edir və gələcək üçün xoş vədlər bəxş edir. Ümummilli liderimiz Heydər Əliyevin də əvəzsiz və misilsiz xidmətləri böyük rol oynamışdır. Uzaqgörən dahi liderimiz Heydər Əliyev həmin dövr haqqında bəyanatında bildirir: "Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaq. Ən əsası odur ki, AXC az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Bu cümhuriyyətin yaradılmasında müstəsna xidmətləri olan Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyiski, Həsən bəy Ağayev, Nəsibbəy Usubbəyov, Mehdi bəy Hacınski, Məmməd Yusif Cəfərov və digər ictimai xadimlərin xatirəsini qədirbilən Azərbaycan xalqı bu gündə də böyük ehtiram hissi ilə yad edir". Azərbaycan Xalq Cümhuriyyəti millətimizin dövlətçilik ənənələrini yaşadaraq o dövr üçün səciyyəvi olan tarixin çətin mürəkkəb prossesləri arasından və eləcə də böyük nəhəng dövlətlərin qarşısında məğrur, əyilməz duruşu ilə özünəməxsus dəyərləri qısa 23 aylıq ömrünə rəğmən gələcək nəsillərə misilsiz miras kimi ötürmüşdür. Şərq ölkələri səfalətlə, bərbad bürokratiyayla boğuşarkən məhz Azərbaycanda dövrünə görə mükəmməl bir respublika, cümhuriyyət quruldu. Eyni zamanda şərqdə yaradılmış ilk demokratik respublika idi. Onu mükəmməl edən sadəcə yarandığı dövr deyil, həmin dövrün emperyalist güclərinin digər xalqlara qarşı aqresiv tutumudur. Birinci Dünya müharibəsinin bitməsiylə nəhəng dövlətlərin digər kiçik dövlətlərə qarşı təsiri artdı və belə bir vəziyyətdə ətrafı güclü dövlətlərlə əhatələnmiş Azərbaycan xalqı öz cümhuriyyətini qurmağı bacardı. Həmçinin bədnam qonşularımız ermənilərin Azərbaycan torpaqları üzərində haqq iddia etməsi və bəzi qərb ölkələrinin onları dəstəkləməsi vəziyyəti daha da qəlizləşdirirdi... Cümhuriyyətin süqutundan sonra İosif Stalin "bu, 1 il yarımlıq hakimiyyətiniz müddətində xalqa nə verə bildiniz?" deyə Məhəmməd Əmin Rəsulzadəyə sual verir. Dövrünün fironu sayılan Stalin kimi qəddar bir insana Məhəmməd Əmin Rəsulzadənin tarixi cavabı gecikmir: "Çox şey verə bilmədik. Amma milli azadlığın nə olduğunu başa saldıq. Az da olsa, milli istiqlal dadızdırdıq. Bir kərə yüksələn bayraq bir daha enməz". Bir kərə üfüqlərə ucalan bayraq enmədi və 70 il sonra 1991-ci ildə yenidən zirvələrdə dalğalanmağa başlandı. Azərbaycan gec də olsa, müstəqilliyini bərpa etdi. 1993- cü ilin iyun ayının 15-də Azərbaycan müstəqil dövlət kimi məhv olmağın eşiyində idi. Ölkəyə rəhbərlik edən, uzaqgörən olmayan bacarıqsız siyasətçilər çıxış yolu tapmaqda aciz qalmışdılar. İtirdiyimiz torpaqlar, şəhidlər, qardaş qırğınları, yoxsulluqlar, siyasi hərc-mərcliklər, separatçılıq siyasəti yeridən "liderlər", - birsözlə: Azərbaycan öz müqəddəratı ilə baş-başa buraxılmışdı. Eləcə də müstəqilliyimizin əbədiyyət günəşi olan Azərbaycanımızın üzərinə qara buludlar kimi kölgə salan mənfur ermənilər və onların havadarları isə qarabaqara müstəqil dövlətçiliyimizə qarşı təcavüz etməkdə idi. Tarix boyu hər dövrdə Azərbaycanın müqəddəratını həll edən igidlər səhnəyə çıxmışdır. Belə igidlərdən biri də, türk və müsəlman dünyasının fəxri, xalqın və vətənin ağır vəziyyətində xilsakar kimi ortaya çıxmış dünya siyasətinin böyüklərindən sayılan və hətta rəqibləri tərəfindən yüksək dəyərləndirilən Azərbaycan xalqının mübariz oğlu - Ulu Öndər Heydər Əliyev idi. Onun yenidən siyasət meydanına atılması xalqımızda ruh yüksəkliyini, müstəqilliyə olan inamını daha da artırdı. Bu elə bir siyasi dönüş idi ki, təkcə tarix onu şanlı səhifələrə yox, O Azərbaycanın Cümhuriyyət tarixini başdan-başa yenidən yazacaqdı çünki tarix onunla yazılacaqdı. Elə həmin siyasi dönüş düşmənin təcrübəli siyasətçilərindən birinin ürəyinə yaman qorxu salmışdı: "Biz batdıq" deməsi məyus və qorxaqlığından xəbər verən, dilinə süzülüb gələn həqiqətlər idi. Zaman həmin erməni siyasətçinin nə qədər haqlı olduğunu bizlərə bəyan etdi. Xalqın birliyindən doğan Azərbaycan Cümhuriyyətini günəşə bənzətsək bu elə bir günəşdir ki, dünya var olduğu müddətcə əbədi olaraq bizləri işıqlandıracaqdır. Sual yaranır ki, bu cümhuriyyətin mənə, günümüzdəki gənclərə təsiri nədir? Başda söylədiyim kimi Azərbaycan Xalq Cümhuriyyəti günümüz dəyərlərinin əsasını təşkil edir. Əgər mən bu gün azad, müstəqil və demokratik respublikada yaşayıramsa, buna görə qismən də olsa, cümhuriyyətə borcluyam. Çünki kim bilir, bəlkə də bu cümhuriyyət yaranmasaydı, Azərbaycan digər böyük dövlətlərin tərkibinə qatılacaq, öz dəyərlərini get-gedə itirəcək və yavaş-yavaş əriyib yox olacaqdı. Həmçinin, bugünkü Azərbaycan Respublikasının bayrağı, dövlət quruluşu məhz cümhuriyyətə əsaslanır və onu əbədiləşdirir. Bunlardan əlavə bu cümhuriyyət bizə böyük tarixi praktikaların nəticələrini sərgiləyir. Yeni qurulan parlament böyük humanizm göstərərək digər etnik millətləri, hətta erməniləri belə dəvət edən dövlətimiz ölkədaxili qarışıqlıqları həll edə bilməmiş və bu səbəbdən süqutunu tezləşdirmişdi. Həmçinin Xalq Cümhuriyyətinin günümüzə ötürdüyü böyük mədəni irsi də var. Hansı ki, şərq ölkələrində qadın haqlarının tapdalanması halları baş verərkən, Azərbaycanda qız məktəbləri açılmış, qadınlara seçmə-seçilmə hüququ verilmişdir. Şübhəsiz ki, biz o dövrdə açılan maarif-mədəniyyət ocaqlarına başqa nümunələr də gətirə bilərik. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin bu sözlərini yada salaraq: "Müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir". Bu sözlərə əsaslanaraq mən deyə bilərəm ki, hazırkı Azərbaycan gəncliyinin çiyinlərinə böyük yük düşür. Azərbaycan dövlətini tanıtmaq, Xalq Cümhuriyyəti kimi zəngin irslərini unutmamaq və onu gələcək nəsillərə ötürmək Azərbaycan gənclərinin əsas məqsədi olmalıdır.



***Hazırladı: Bakı Dövlət Universitetinin Filologiya (Azərbaycan dili və ədəbiyyatı) fakültəsinin II kurs tələbəsi Elbrus Xanəli***



# Qobustan mədəniyyətinin növbəti uğuru

Azərbaycan musiqi mədəniyyətinə dünya şöhrətli musiqi xadimləri bəxş etmiş Qobustan yeni-yeni uğurları ilə bütün qobustanlıları sevindirməkdədir. Dahi sənətkar, Azərbaycan Respublikasının xalq artisti Alim Qasımovu, Azərbaycan Respublikasının xalq artisti Zabit Nəbizadəni, Azərbaycan Respublikasının xalq artisti Nazpəri Dostalıyevanı, Azərbaycan Respublikasının əməkdar artistləri Bəsti Sevdiyevanı, Elnarə Abdullayevanı, ustad aşıqlar Aşıq Əvəz Hacıyevi, Aşıq Mahmud Ələsgəroğlunu, Aşıq Vüqar Mahmudoğlunu, Aşıq Abbas Musaxanoğlunu, gənc aşıq Xəyal Məsimoğlunu, tanınmış xanəndələr Abgül Mirzəliyevi, Xətai Hacıyevi, Maşallah Mirzəliyevi, Elburus Niftəliyevi və digərlərini Azərbaycan mədəniyyətinə bəxş edən ulu Qobustan tarixi boyu öz istedadlı övladları ilə fəxr etməkdədir. Çox sevindirici haldır ki, bu böyük ənənə bu gün də böyük uğurla davam etdirilməkdədir.







24.12.2018-ci il tarixdə İsmayıllı şəhərində İsmayıllı Regional Mədəniyyət İdarəsinin təşkil etdiyi "İstadad sorağında 2018"adlı müsabiqənin yekun konserti keçirilmişdir.Təşkil olunan müsabiqənin əsas məqsədi Azərbaycan mədəniyyətinin təbliği və yetişməkdə olan gənc nəslin yaradıcılıq potensialının inkişafı məqsədi olmuşdur. Müsabiqə Ağsu, İsmayıllı, Şamaxı, Qəbələ və Qobustan rayonlarından olan istedadların arasında keçirilmişdir. Müsabiqənin I turu Şamaxı rayon Mədəniyyət Mərkəzində keçirilmişdir. Bu müsabiqədə Qobustan rayonundan olan iştirakçılar, yuxarı yaş qrupunda Binyətov Baxış I yerə, Cəbrayılov Nicat II yerə, Ağayeva Rəqsanə III yerə, aşağı yaş qrupunda isə Güləliyev Səyyaf I yerə, Məlikova Fədayyə III yerə layiq görülmüşlər. Digər iştirakçılar Əzizov Əvəzxan, Rəfiyev Amin, İmanov Kənan, Zərbəliyev Adəm, İbrahimov Taleh isə fəxri-fərmanlarla təltif olunmuşlar.

Qobustan şəhər R.Behbudov adına Uşaq İncəsənət məktəbinin direktoru Zaur Cəfərov isə 2018-ci ildəki səmərəli fəaliyyətinə görə fəxri-fərmanla təltif olunmuşdur.

***Qobustan şəhər R.Behbudov adına Uşaq İncəsənət məktəbinin direktoru Zaur Cəfərov***

**Hörmətli sakinlər Kapital Bankın Yeni 2019-cu ilə özəl 19 %-dən başlayaraq güzəştli kreditlər və hədiyyə olaraq BİR KART təklifindən yararlanmaq üçün Kapital Bankın Qobustan filialına müraciət edə bilərsiniz.**




# Vətənin igid oğlu, əfsanəvi qəhrəman Mixaylo!

*"Vətən mənə oğul desə nə dərdim,*
*Mamır olub qayasında bitərdim.*
*M.Araz.*

Görkəmli şairimiz Məmməd Arazın çox yüksək dəyərə malik yuxarıdakı fikirləri mənə elə gəlir ki,bu yazı üçün ən uğurlu epiqrafdır. Çünki sözün həqiqi mənasında Mehdi Hüseynzadə vətənin layiqli oğlu,həqiqi vətəndaşı oldu. Onun yüksək qəhrəmanlığı .gözəl rəssamlıq qabiliyyəti,bir neçə xarici dil bilməsi ,özünəməxsus qeyri - adi kəşfiyyatçılıq bacarığı və bütün bunların fövqündə duran vətənə sonsuz məhəbbəti hər zaman köməyinə çatdı.Məhz bu səbəbdən də, bu gün onun adı dillərdə dastan ,xatirəsi hər zaman əzizdir.

Xoşbəxt o xalqdır ki, onun çətin anında harayına yetişən oğulları,qızları olur.Bu qəhrəmanların göztərdikləri hünər gələcək nəsillər üçün bir dərslik ,qəhrəmanlıq salnaməsi sayılır.Məhz buna görə də, Azərbaycan xalqı dünyanın ən bəxtəvər xalqlarından biridir.Çünki hər zaman onun da çətin ,dar məqamlarında harayına yetişən oğulları olub.Belə qəhrəmanlardan biri də xatirəsi hamımızın qəlbində əziz olan ,hələ sağlığında mifə çevrilən ,haqqında şeirlər ,nəğmələr qoşulan,filmlər çəkilən əfsanəvi qəhrəman Mehdi Hüseynzadədir.

Mendi Hüseynzadə ağıllı, savadlı, çətin məqamda düzgün qərar çıxarmağı bacaran,eyni zamanda poeziya vurğunu şair qəlbliydi. O, uzaq ellərdə olanda da, öz elini, vətənini belə xatırlamışdır.

*Kaş ki,mən bir sarı yarpaq olaydım*
*Sabahın yelləri alaydı məni*
*Aşaraq o qarlı ,uca dağları*
*Vətən torpağına salaydı məni*

*Süd verib qoynunda bəslədin məni,*
*Mən sənin gözündə qurbanam vətən!*
*Qoymaram incidə yad əllər səni*
*Bil ki,etibarlı oğlunam Vətən!*

Azərbaycan Respublikası Prezidentinin 23 iyun 2018 - ci il tarixli 218 nömrəli Sərəncamına əsasən Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Təhsil Nazirinin əmri, Qobustan rayon Təhsil Şöbəsinin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq ,Qobustan şəhər 2 saylı tam orta məktəbdə də təntənəli yubiley tədbiri keçirildi .Tədbirdə Qobustan şəhər 2 saylı tam orta məktəbin müəllim -şagird heyəti ,qonaqlardan Qobustan şəhər 3 saylı tam orta məktəbin direktoru A.Əlibəy,tarix müəllimi S.Mirəli ,dil - ədəbiyyat müəllimi M.Sədaqət ,Mərkəzi kitabxananın kitabxanaçıları iştirak edirdi.

Məktəbin direktoru Mamedova Vüsalə müəllim tədbiri açaraq tədbirin əhəmiyyətindən danışdı.Mehdi Hüseynzadə kimi qəhrəmanların həyat yolunun şagirdlərin vətənpərvər ruhda böyüməsinə ,örnək götürməsinə bir stimul olduğunu qeyd etdi.O,eyni zamanda Azərbaycan Respublikası Prezidentinin Sərəncamını diqqətə çatdıraraq bu mövzuda silsilə tədbirlərin davam edəcəyini bildirdi.Şagirdlərin ifasında şeirlər ,çıxışlar iştirakçılar tərəfindən yüksək səviyyədə qarşılandı."Uzaq sahillərdə" filmindən bir səhnə X sinif şagirdi Zərbalıyev Fariz , XI sinif şagirdi Güləliyev Musaxan,IX sinif şagirdləri Aslanov Xəzər və Qarayev Vüsal tərəfindən məharətlə təqdim olundu.

Vətənpərvər ruhda mahnılar, M.Hüseynzadəyə həsr olunmuş slaydlar nümayiş etdirildi.Qobustan şəhər 3 saylı tam orta məktəbin direktoru da öz çıxışında M.Hüseynzadənin qəhrəmanlığından söz acdı .Eyni zamanda tədbir haqqında xoş təəssüratını bildirdi.

Məktəbin tarix - coğrafiya müəllimi A.Rəcəbova Mehdi Hüseynzadənin Partizan fəaliyyətindən xüsusi məqamları diqqətə çatdırdı.O bildirdi ki , həqiqətən də, Mehdinin göstərdiyi sücaət insan ağlının fövqündə duran qabiliyyətlərdəndir.Ona təsadüfi olaraq "mif", "əfsanə" adı verməmişdilər.

Qobustan şəhər 3 saylı tam orta məktəbin tarix müəllimi S.Mirəli müəllim də Mehdi Hüseynzadənin ,bir şəxsiyyət kimi yüksək dəyərə malik olduğunu ,eyni zamanda həddən artıq yaradıcı ,bir neçə bacarığa malik bir insan olduğunu vurğuladı.Şagirdlərin çıxışlarına münasibətini bildirdi.Özü də şeir töhfəsi ilə tədbirə rəng qatdı.Qobustan şəhər 3 saylı tam orta məktəbin dil - ədəbiyyat müəllimi M.Sədaqət müəllim Mehdi Hüseynzadə haqqında indiyə qədər məlum olmayan faktlardan söz acdı. Qəhrəman haqqında şagirdlərin perfromansları haqqında öz ürək sözlərini söylədi.Sədaqət müəllimə öz cıxışını vətənə həsr olunmuş şeirlə bitirdi.Qobustan şəhər 2 saylı tam orta məktəbin dil - ədəbiyyat müəllimi B.Səmid müəllim öz cıxışı ilə tədbiri yekunlaşdırdı.Səmid müəllim Mehdi Hüseynzadənin "Mixaylo"nun həyatından ,ömür yolundan ,onun 1957 - ci ildə" Sovet İttifaqı Qəhrəmanı "Fəxri adına layiq görülməsindən hərarətlə danışdı.Cənab Prezidentin Sloveniyada "Mixaylo"nun memorial abidəsinin açılışındakı çıxışı iştirakçılara təqdim olundu.

Aparıcının sözlərindən:

"Qoy bizim növbəti tədbirimiz Qarabağ torpağında keçirilsin. Arzu edək ki, Qafur, Həzi, Mübariz, Mehdi kimi qəhrəmanların şücaətindən Qarabağın azad olunduğu gün -bayram tədbirində söz acaq".

Qobustan şəhər 3 saylı tam orta məktəbin şagirdləri də əliboş gəlməmişdilər.Onların ifasında gözəl şeirlərlə ,vətənpərvərlik ruhunda mahnı və "Koroğlu "uvertürası ilə tədbir yüksək əhvali - ruhiyyə ilə sona çatdı.

***Qobustan şəhər 2 saylı tam orta məktəbin dil-ədəbiyyat müəllimi Bağırova Dilarə***

# Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı brifinq keçirilib

***Dekabrın 3-də Vergilər Nazirliyində Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin əsas istiqamətləri ilə bağlı brifinq keçirilib. Brifinqdə Vergi siyasəti departamentinin baş direktoru Samirə Musayeva Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin əsas məzmunu və 2019-cu ildə həyata keçiriləcək vergi islahatlarının başlıca istiqamətləri haqqında kütləvi informasiya vasitələrinin nümayəndələrinə ətraflı məlumat verib.***

Bildirilib ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin tərkib hissəsi olan vergi siyasəti iqtisadiyyatın bu günkü tələblərinə uyğun olaraq təkmilləşdirilir. Ölkədə sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi qanunvericiliyinə çox mühüm dəyişikliklər layihəsi hazırlanıb və qanun layihəsi Milli Məclis tərəfindən qəbul edilib. Vergi Məcəlləsinə dəyişiklikləri 5 əsas istiqamət üzrə təsnifləşdirmək olar. Bunlar sahibkarlığın dəstəklənməsi, vergidən yayınmanın və "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, vergitutma bazasının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, mövcud və yeni veriləcək vergi güzəştlərinin səmərəliliyinin yüksəldilməsi kimi istiqamətləri əhatə edir.

Qeyd olunub ki, kölgə iqtisadiyyatının miqyasının azaldılması və iqtisadiyyatın şəffaflaşdırılması məqsədilə Vergi Məcəlləsinə edilən dəyişikliklər əsasən özəl sektorda çalışan işçilərin əmək haqqından tutulan gəlir vergisi üzrə vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması, malların sənədsiz dövriyyəsinə, xərclərin rəsmiləşdirilməməsinə görə maliyyə sanksiyalarının tətbiqi, bir sıra sahələrdə vergi nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlıdır.

S.Musayeva vergi qanunvericiliyinə edilmiş ən mühüm dəyişiklik kimi qeyri-neft sektorunun özəl bölməsində çalışan vətəndaşların əmək haqlarından tutulan vergilər üzrə vergi güzəştlərinin verilməsini qeyd edib. Dəyişikliyə əsasən aylıq əməkhaqqı 8000 manata qədər olan vətəndaşlar üçün 7 il müddətində gəlir vergisi üzrə 100 faizlik güzəşt verilib, 8000-dən yuxarı olan məbləğdə muzdlu işlə əlaqədar gəlir əldə edən fiziki şəxslər üzrə isə gəlir vergisi 14 faiz həcmində müəyyənləşdirilib ki, bu da dövlətin sözügedən məsələdə çox böyük fiskal güzəştə getməsi deməkdir. Vergi güzəştinin məqsədi barədə danışan departamentin baş direktoru bildirib ki, əsas hədəf "kölgə iqtisadiyyatı"nın həcminin azalması, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, iqtisadi fəallığın, xüsusilə qeyri-neft sektorunun özəl bölməsində işgüzar aktivliyin daha da canlanması və sürətləndirilməsi, vətəndaşların hüquqlarının daha dolğun şəkildə təmin edilməsidir.

Bundan başqa, Vergi Məcəlləsinə edilən dəyişikliklərdə pərakəndə ticarət və ictimai iaşə sektorunda dövriyyənin rəsmiləşdirilməsində ictimai nəzarətin gücləndirilməsi və bu işdə istehlakçıların stimullaşdırılması məqsədilə istehlakçılar tərəfindən belə obyektlərdə xərclənən vəsaitlərin ƏDV-sinin müəyyən hissəsinin istehlakçılara geri qaytarılması nəzərdə tutulur.

İstehlakçılar tərəfindən pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara görə (neft və qaz məhsulları istisna olmaqla) ödənilmiş ƏDV-nin nağdsız ödənişlərdə 15 faizi, nağd ödənişlərdə isə 10 faizi nəzarət-kassa aparatının çeki əsasında istehlakçılara geri qaytarılacaqdır. Bu qaydaların tətbiqi ilə bağlı əlavə olaraq prosedurları özündə əks etdirən qanunvericilik aktı qəbul olunacaqdır.

İstehlakçı fiziki şəxslərin bu qaydada stimullaşdırılması həm şəffaflığın təmin edilməsi baxımından, həm də vergi ödəyicilərinin ƏDV-nin ödəyicisi kimi fəaliyyət göstərmələrinə müsbət təkan verəcəkdir.

Vergitutma bazasının genişləndirilməsi məqsədilə Vergi Məcəlləsinə edilən dəyişikliklər sırasında vergi uçotunda olmayan şəxslərdən nağd qaydada alına bilən mallara görə aparılan ödənişlərin ödəmə mənbəyində vergiyə cəlb edilməsi, sadələşdirilmiş verginin ödəyicilərinin əhatə dairəsinin məhdudlaşdırılması, aksizli və məcburi nişanlanmalı malların dövriyyəsinə səmərəli vergi nəzarəti mexanizminin qurulması, aksizli malların siyahısının genişlənməsi (energetik içkilər, elektron siqaret üçün maye) və aksiz dərəcələrinin artırılması və s. vardır.

Qeyd olunub ki, sadələşdirilmiş vergitutma metodunu tətbiq edən vergi ödəyiciləri vergilərini təqdim etdikləri mala (işə, xidmətə) görə əldə olunan hasilatdan (xərclər çıxılmadan) hesabladıqlarından adətən gəlirlərinin və xərclərinin uçotunu aparmamağa və əməliyyatları lazımı qaydada sənədləşdirilməməyə meyilli olurlar ki, bu da ölkədə aparılan vergi islahatları və şəffaflaşma siyasəti ilə uzlaşmır. Buna görə də Vergi Məcəlləsinə daxil edilmiş yeni müddəalar əsasən sadələşdirilmiş vergitutma metodunu tətbiq etmək hüququ olan şəxslərin dairəsi məhdudlaşdırılıb. Dəyişikliyə əsasən işçi sayı qanunla müəyyən edilən həddən çox olan istehsal fəaliyyətini, topdansatış ticarət fəaliyyəti qaydasında malların təqdim edilməsini, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının satışını, xəz-dəri məmulatlarının satışını həyata keçirən şəxslərin, habelə lisenziya tələb olunan fəaliyyət növü ilə məşğul olan şəxslərin (bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər istisna olmaqla) və s. sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ yoxdur. Qanunla sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ məhdudlaşdırılan vergi ödəyiciləri növbəti ildən mənfəət (gəlir) vergisinin ödəyicisi kimi fəaliyyət göstərəcəklər.

Vergi Məcəlləsinə vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə də bir sıra dəyişikliklər edilib. Bunların sırasında yeni nəsil nəzarət-kassa aparatlarının quraşdırılması, vergi ödəyicisinin iqtisadi maraq mərkəzinin olduğu yer üzrə uçota alınması, elektron qaimə-faktura verməli olan şəxslərin əhatəsinin dəqiqləşdirilməsi, ƏDV-nin əvəzləşdirilməsi mexanizminin təkmilləşdirilməsi və s. dəyişikliklər yer alır.

Bundan başqa Vergi Məcəlləsində vergi güzəştlərinin iqtisadi səmərəsinin yüksəldilməsi məqsədilə dəyişikliklər edilib. Bunların sırasında özəlləşdirmədə iştirak edən investorların əmlak vergisindən azad edilməsi, vergi ödəyicisinin azı 3 il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmlərin satışına vergi güzəştinin tətbiq edilməsi və həmçinin həssas sosial təbəqələrə (şəhid ailələrinə) güzəştin verilməsi kimi sösialyönümlü dəyişikliklər də əks olunub. Mühüm dəyişikliklərdən biri vergi güzəştləri əldə edən şəxslərə malların dövriyyəsinin uçotunun aparılmadığı halda maliyyə sanksiyalarının tətbiqi ilə bağlıdır.

S.Musayevanın sözlərinə görə, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və sahibkarlığın inkişafının dəstəklənməsi məsələləri də diqqətdən kənarda qalmayıb. Belə ki, sadələşdirilmiş vergi dərəcəsinin bütün ölkə ərazisində 2 faizə endirilməsi, pərakəndə ticarət və iaşə sahələrində nağdsız ödənişlər üzrə güzəştlərin verilməsi və inzibati şikayət zamanı bank hesabından və ƏDV-nin depozit hesabından pul vəsaitinin silinməsinin dayandırılması bu istiqamət üzrə edilən dəyişikliklərə aiddir.

2019-cu ildən mikro və kiçik sahibkarlıq subyektlərinin balanslarında olan əsas vəsaitlər üzrə sürətli amortizasiya normaları tətbiq ediləcək. Bundan başqa, kiçik sahibkarlıq subyektlərinin gəlir və xərcin uçotunun aparılması mədəniyyətinin formalaşdırılması və təkmilləşdirilməsi məqsədilə Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada gəlirini və xərcini sənədləşdirən bu kateqoriya vergi ödəyicilərinin öz təsisçilərinə (payçılarına) ödədikləri dividendlərin ödəmə mənbəyində vergidən azad olunmasını nəzərdə tutan müddəa Vergi Məcəlləsinə daxil edilib. Bu dəyişikliyə qədər kiçik sahibkarlıq subyektləri də xalis mənfəətini öz təsisçiləri (payçıları) arasında bölüşdürərkən ümumi qaydada 10 faiz dərəcə ilə vergi tuturdu. Bununla da, sahibkarlıq subyektlərinə şəffaf uçot apardıqları halda əlavə vergi güzəşti veriləcək və onlar tərəfindən təsisçilərinə (payçılarına) ödənilən dividendlər ödəmə mənbəyində 10 faiz dərəcə ilə tutulan vergidən azad olunacaqdır.

S.Musayeva mikro biznes, kiçik və orta sahibkarlıq subyektləri üçün gəlir, mənfəət, əmlak, torpaq vergisi və ƏDV üzrə güzəştlərin də nəzərdə tutulduğunu diqqətə çatdırdı.

Kiçik və orta biznes (KOB) klasterinə daxil olan şirkətlər KOB reyestrində qeydiyyata alındıqları andan etibarən 7 il müddətinə mənfəət, torpaq və əlavə dəyər vergisindən azad edilirlər. KOB klasterinə daxil olan şirkətlər tərəfindən istehsal və emal məqsədilə texnika, texnoloji avadanlıq və qurğuların idxalı 7 il müddətinə ƏDV-dən azad edilir. Bundan başqa, kiçik və orta biznes klasterinin iştirakçısı olan sahibkarlıq subyektləri tərəfindən KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal (iş, xidmət) üzrə əldə etdiyi gəlirin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi 7 il müddətinə gəlir (mənfəət) vergisindən azad edilir.

Mikro-sahibkarlıq subyektləri üçün nəzərdə tutulan güzəştlərə sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir və mənfəətin 75%-nin vergidən azad edilməsi daxildir. Bundan başqa, mikro-sahibkarlıq subyekti olan fərdi sahibkarlar və hüquqi şəxslər əmlak vergisindən azad edilirlər. Həmçinin mikro və kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan startapların startap fəaliyyəti üçün şəhadətnamə aldıqları andan etibarən 3 il müddətinə gəlir və mənfəət vergisi ödənişindən azad edilir.

Brifinqdə KİV nümayəndələrinin sualları da cavablandırılıb.

## Qobustan rayon prokurorluğu əməkdaşları tərəfindən 2019-cu ilin yanvar-mart aylarında vətəndaşların yaşayış yerləri üzrə qəbuluna dair

## Q R A F İ K

| Sıra №-si | Vətəndaşların qəbulu keçirilən ərazi | Qəbulun keçirilmə vaxtı | Vətəndaşları qəbul edən məsul şəxs |
|---|---|---|---|
| 1. | Qobustan rayonu İHB-nin Nabur kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 25.01.2019<br>15:00-18:00 | Rayon prokuroru<br>Ramin Hüseynov |
| 2. | Qobustan rayonu İHB-nin Ərəbqədim kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 27.02.2019<br>15:00-18:00 | Rayon prokuroru<br>Ramin Hüseynov |
| 3. | Qobustan rayonu İHB-nin Təklə kənd inzibati ərazi dairəsi nümayəndəliyi – Çuxanlı kəndi | 29.03.2019<br>15:00-18:00 | Rayon prokuroru<br>Ramin Hüseynov |

**Qeyd:** Kəndlərdə qəbulların keçirilməsi ilə əlaqədar əvvəlcədən rayon İHB-nin kəndlər üzrə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinə və bələdiyyələrə məlumat verilmədir

***Qobustan rayon prokuroru kiçik ədliyyə müşaviri Ramin Hüseynov***

## ELAN

Həmidov Feyruz Ağaxan oğluna məxsus Qobustan şəhərində yerləşən JN-0070, kod 30701006 saylı dövlət aktı itdiyi üçün etibarsız sailır.

Muradova Təranə Ağasəməd qızına və ailə üzvlərinə verilmiş, Qobustan rayonu Xilmilli kəndində yerləşən JN-0559 nömrəli dövlət aktı itdiyi üçün etibarsız sayılır.

3. Qurbanov Afat Qurban oğluna məxsus Qobustan şəhərində yerləşən JN-0249, kod 30701006 saylı dövlət aktı itdiyi üçün etibarsız sailır.

Azərbaycan Respublikası Baş prokuroru cənab Zakir Qaralov tərəfindən cari ilin 18 yanvar tarixində saat 10:00-da Şamaxı rayon prokurorluğunun inzibati binasında Şamaxı, İsmayıllı, Ağsu, Qobustan, Kürdəmir və Göyçay rayon sakinlərinin qəbulu keçiriləcəkdir. Qəbulda iştirak etmək istəyən Qobustan rayon sakinləri qeydiyyatlarının aparılması üçün rayon prokurorluğuna müraciət edə bilərlər.

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti
www.qobustan-ih.gov.az

*Baş redaktor:* Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:* Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Ekspress Servis" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru